**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.2.70**

**HÜSEYN ABBASOV**

# YENİ DÜNYA NİZAMINDA NAXÇIVANIN YERİ: GEOSİYASİ YANAŞMALAR VƏ STRATEJİ İMKANLAR

*XXI əsrin üçüncü onilliyində formalaşmağa başlayan yeni dünya nizamı kontekstində Naxçıvan Muxtar Respublikasının geosiyasi mövqeyi, regional əhəmiyyəti və beynəlxalq əlaqələr sistemindəki rolunu təhlil etdiyimiz yazımızda, bu unikal bölgənin strateji əhəmiyyətini, tranzit imkanlarını, təhlükəsizlik baxımından oynadığı rolu və qonşu dövlətlərlə əməkdaşlıq perspektivlərini ətraflı şəkildə araşdıracağıq. Qlobal miqyasda baş verən siyasi və iqtisadi dəyişikliklər, xüsusilə də qütblərarası güc balansının pozulması fonunda Naxçıvan bölgəsi yeni strateji çəki qazanmışdır. 2020-ci il İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni reallıqlar, Zəngəzur dəhlizinin açılması ehtimalı ilə birlikdə, Naxçıvanı həm regiondaxili, həm də regionlararası əməkdaşlıq üçün mühüm bir qovşağa çevirməkdədir. Bu dəhliz yalnız Azərbaycanla Naxçıvan arasında quru bağlantısının bərpası deyil, eyni zamanda Türk dünyasının inteqrasiyası, Orta Dəhliz çərçivəsində Şərq-Qərb nəqliyyat marşrutlarının genişlənməsi baxımından da strateji mahiyyət daşıyır.*

*Təhlillərimizdə Naxçıvanın yerləşdiyi coğrafi mövqeyin tarixi və çağdaş siyasi aspektlərdən analizi verilmişdir. Bu ərazinin Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlıq platformalarında oynaya biləcəyi rol qiymətləndirilmişdir. Enerji, nəqliyyat, təhlükəsizlik və humanitar əlaqələr kontekstində aparılan təhlillər, Naxçıvanın gələcəkdə regionun mühüm geosiyasi fiqurlarından birinə çevrilmək potensialını üzə çıxarır. Nəticədə deyə bilərik ki, yeni dünya nizamında Azərbaycanın ümumi strateji maraqlarının reallaşdırılmasında Naxçıvan mühüm geosiyasi nöqtəsi kimi çıxış etməkdədir.*

**Açar sözlər:** *Naxçıvan, yeni dünya nizamı, geosiyasi reallıqlar, Zəngəzur dəhlizi, Türk dünyası, regional əməkdaşlıq, strateji mövqe.*

**Giriş.** XXI əsrin üçüncü onilliyində dünya nizamında müşahidə olunan əsaslı dəyişikliklər geosiyasi münasibətlər sistemində yeni reallıqların formalaşmasına səbəb olmuşdur. Qərb və Şərq arasında güc balansının dəyişməsi, ABŞ, Avropa İttifaqı, Rusiya, Çin və Türkiyə kimi əsas fiqurlar arasında artan rəqabət, beynəlxalq münasibətlərin çoxqütblü bir düzənə doğru yönəldiyini göstərir. Belə bir şəraitdə Cənubi Qafqaz regionunun strateji əhəmiyyəti yenidən gündəmə gəlmiş, enerji, nəqliyyat və təhlükəsizlik baxımından qlobal maraqların kəsişdiyi bir coğrafiyaya çevrilmişdir. Bu proseslər fonunda Azərbaycanın mühüm geosiyasi komponentlərindən biri olan Naxçıvan Muxtar Respublikası da diqqət mərkəzinə düşməkdədir.

2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi ilə regionda yeni geosiyasi düzən formalaşmış, bu düzən çərçivəsində Naxçıvanın strateji rolu daha da artmışdır. Xüsusilə Zəngəzur dəhlizinin gündəmə gəlməsi, Naxçıvanın yalnız coğrafi deyil, siyasi, iqtisadi və mədəni baxımdan da regional inteqrasiya proseslərində əsas açar məqamlardan birinə çevrilməsinə zəmin yaratmışdır. Bununla yanaşı, 2009-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının məhz Naxçıvanda təsis olunması da bu ərazinin Türk dünyası üçün xüsusi simvolik və strateji dəyər daşıdığını göstərmişdir.

Hazırkı geosiyasi dəyişikliklər fonunda Naxçıvan həm regional kommunikasiya mərkəzi, həm də Avrasiya məkanında təhlükəsizlik və əməkdaşlıq platforması kimi yeni imkanlar əldə etmişdir. Bu tədqiqatın məqsədi, Naxçıvanın yeni dünya nizamında tutduğu yeri müəyyənləşdirmək, onun geosiyasi potensialını və strateji imkanlarını təhlil etməkdir. Qlobal güc mübarizəsinin intensivləşdiyi, regional əməkdaşlıqların isə yeni məzmun kəsb etdiyi bir dövrdə, Naxçıvanın rolu təkcə keçmişdən miras qalan strateji mövqeyinə deyil, həm də gələcək inteqrasiya perspektivlərinə əsaslanır.

**Qlobal geosiyasi dəyişikliklər fonunda Cənubi Qafqaz və Naxçıvan.** XXI əsrin üçüncü onilliyində qlobal güc balansı əsaslı şəkildə dəyişməkdədir. ABŞ və Avropa İttifaqı ilə yanaşı Çin, Rusiya, Türkiyə kimi aktorların qarşılıqlı münasibətlərində yaşanan gərginliklər və yeni ittifaqlar,

dünya nizamının çoxqütblüləşməsini sürətləndirir. Bu dəyişikliklər fonunda Cənubi Qafqaz, strateji mövqeyi və enerji yollarına çıxışı ilə yenidən diqqət mərkəzinə çevrilir [1, s. 14-17]. Azərbaycanın 2020-ci ildə ərazi bütövlüyünü təmin etməsi ilə regionda yeni geosiyasi reallıqlar formalaşmışdır. Bu yeni vəziyyətdə Naxçıvan Muxtar Respublikası, artıq təkcə coğrafi baxımdan deyil, siyasi və iqtisadi baxımdan da strateji məkana çevrilməkdədir. Xüsusilə Zəngəzur dəhlizi layihəsinin gündəmə gəlməsi Naxçıvanın Azərbaycan, Türkiyə və Orta Asiya ölkələri ilə əlaqələrinin daha da dərinləşməsinə səbəb olur [2, s. 26-28]. Bu proseslərlə paralel olaraq, Türk Dövlətləri Təşkilatı çərçivəsində Naxçıvanın önəmi daha da artır. Məhz bu təşkilatın təməli 2009-cu ildə Naxçıvanda qoyulmuş və bu hadisə türk dünyasının inteqrasiyasında tarixi dönüş nöqtəsi olmuşdur [3, s. 35]. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Naxçıvan bütün türk dünyasının qapısıdır" [1, s. 17] və bu, onun təkcə coğrafi deyil, həm də siyasi-mədəni simvolizm baxımından strateji rolunu təsdiqləyir.

Bütün bu amillər onu göstərir ki, yeni dünya düzənində Naxçıvan təkcə regional kommunikasiya qovşağı deyil, eyni zamanda geosiyasi dialoqun və sabitliyin əsas platforması ola bilər.

**Naxçıvanın coğrafi mövqeyi və strateji loqistika potensial.** Naxçıvan Muxtar Respublikası coğrafi mövqeyi ilə həm regional, həm də qlobal nəqliyyat və logistika sistemləri baxımından strateji əhəmiyyətə malikdir. Azərbaycanın materik hissəsindən ayrılmış bu ərazi Ermənistan, İran və Türkiyə ilə sərhəddə yerləşməklə, Cənubi Qafqazın qovşaq nöqtəsində yerləşir. Bu coğrafi mövqe ona yalnız bölgələrarası əlaqələr baxımından deyil, həm də beynəlxalq dəhlizlərin formalaşmasında əhəmiyyətli rol qazandırır [1, s. 31].

Naxçıvanın Türkiyə ilə 17 kilometrlik qısa, lakin geosiyasi baxımdan olduqca mühüm sərhədi onun Ankara ilə birbaşa əlaqəsinin təmin edilməsinə imkan yaradır. Bu sərhəd eyni zamanda Türk Dövlətləri Təşkilatının fiziki inteqrasiyası baxımından əsas keçid nöqtəsi rolunu oynayır [3, s. 37]. Məhz bu potensial **Zəngəzur dəhlizi** layihəsinin aktuallığını artırır. Dəhliz reallaşacağı təqdirdə, Naxçıvan Azərbaycanın əsas hissəsi ilə birbaşa əlaqə qurmaqla yanaşı, **Orta Dəhliz** marşrutunun əsas dayaqlarından birinə çevriləcək [2, s. 27]. Bu dəhlizin reallaşması təkcə Azərbaycanın daxili inteqrasiyasını deyil, həm də Çindən Avropaya qədər uzanan Şərq-Qərb nəqliyyat zəncirində Naxçıvanın birbaşa iştirakını təmin edəcək. Bu isə Naxçıvanı təkcə tranzit ərazi deyil, həm də loqistika mərkəzi kimi inkişaf etdirməyə şərait yaradır. Artıq bu istiqamətdə ilkin infrastruktur hazırlıqları və siyasi razılaşmalar mövcuddur [5, s. 18-20]. Eyni zamanda, Naxçıvanın İrana olan sərhədi də mühüm strateji imkanlar yaradır. İran ərazisi vasitəsilə Naxçıvan və Azərbaycanın digər əraziləri arasında alternativ loqistik bağlantılar mövcuddur və bu xətlər siyasi risklərdən asılı olaraq ehtiyat marşrutlar kimi istifadə edilə bilər [6, s. 41]. Bu baxımdan Naxçıvanın coğrafi yerləşməsi ona yalnız geosiyasi deyil, həm də multimodal nəqliyyat və ticarət imkanları baxımından mühüm üstünlüklər verir. Bu üstünlüklər Azərbaycan dövlətinin genişmiqyaslı regional inteqrasiya strategiyası ilə üst-üstə düşür.

**Türk dünyası inteqrasiyasında Naxçıvanın rolu.** Naxçıvan Muxtar Respublikası coğrafi, tarixi və siyasi baxımdan Türk dünyasının inteqrasiyasında xüsusi əhəmiyyətə malikdir. Bu region, yalnız Azərbaycanın tərkib hissəsi olmaqla kifayətlənmir, eyni zamanda Azərbaycanı Türkiyə və bütövlükdə türk dövlətləri ilə birləşdirən mühüm geosiyasi keçid nöqtəsi kimi çıxış edir [3, s. 36].

2009-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (indiki Türk Dövlətləri Təşkilatı – TDT) əsasının Naxçıvanda qoyulması simvolik deyil, strateji və mədəni mesaj daşıyırdı. Bu hadisə Naxçıvanı türk birliyinin əsas siyasi platformalarından birinə çevirdi [1, s. 42]. Elə Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: *"Naxçıvan sadəcə coğrafi ərazi deyil, türk dünyasına açılan strateji qapıdır"*. Naxçıvanın bu rolu yalnız simvolik və siyasi çərçivədə deyil, həm də praktik iqtisadi və nəqliyyat layihələri ilə dəstəklənir. Xüsusilə Zəngəzur dəhlizinin reallaşması, Azərbaycan ilə Türkiyənin birbaşa quru yoluyla birləşməsi, nəticədə isə Orta Asiya türk dövlətlərinin Avropa bazarlarına çıxış imkanlarının genişlənməsi deməkdir. Bu isə Türk dünyasının fiziki inteqrasiyasında Naxçıvanın həlledici rol oynadığını göstərir [2, s. 29-30].

Naxçıvan, eyni zamanda türk mədəniyyətinin, ortaq tarix və identikliyin qorunması və təşviqi üçün mərkəzlərdən biri ola bilər. Burada Türk Akademiyasının və Türk Mədəniyyəti Təşkilatlarının filiallarının yaradılması ilə bağlı təkliflər mövcuddur [7, s. 11-13]. Bu cür təşəbbüslər Naxçıvanın ideoloji və mənəvi baxımdan da Türk dünyasının möhkəmləndirilməsində önəmli platforma rolunu oynadığını göstərir. Bundan əlavə, Naxçıvanın Türkiyə ilə sərhəd vasitəsilə təhlükəsizlik, enerji və hərbi əməkdaşlıq imkanları da genişlənməkdədir. Son illər Naxçıvanda keçirilən birgə Azərbaycan – Türkiyə hərbi təlimləri, bölgənin yalnız mədəni deyil, geosiyasi və müdafiə aspektlərindən də ön plana çıxdığını sübut edir [6, s. 38].

Bütün bu faktorlar Naxçıvanı Türk dünyasının geosiyasi, loqistik, mədəni və təhlükəsizlik mərkəzi kimi önə çıxarır. Onun strateji rolu yalnız indiki mərhələdə deyil, gələcək Türk İttifaqı və ya Konfederasiyası kimi perspektivlərdə də həlledici ola bilər.

**Zəngəzur dəhlizi: blokadadan geosiyasi açılıma.** Zəngəzur dəhlizi təkcə regional nəqliyyat layihəsi deyil, eyni zamanda post-münaqişə geosiyasi sisteminin mühüm elementi kimi çıxış edir. 2020-ci ilin 10 noyabr tarixli üçtərəfli bəyanatında bu dəhlizin açılması ilə bağlı xüsusi müddəanın yer alması, Azərbaycan üçün Naxçıvanla quru əlaqəsinin bərpası, daha geniş planda isə Avrasiya qitəsində strateji nəqliyyat axınlarının yenidən qurulması baxımından dönüş nöqtəsi oldu [1, s. 45-46]. Bu dəhliz vasitəsilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqə yaradılmaqla yanaşı, Azərbaycan – Türkiyə əlaqələri daha da dərinləşəcək, həmçinin Orta Asiyadan Avropaya uzanan Orta Dəhlizin fiziki möhkəmləndirilməsi təmin olunacaq [5, s. 21-23]. Bu isə regionda yeni geoiqtisadi və geosiyasi dinamikanın yaranması deməkdir.

Zəngəzur dəhlizinin açılması ilə İranın regiondakı monopolitik tranzit mövqeyi zəifləyəcək, Ermənistanın isə regional təcrid vəziyyəti dəyişə bilər. Lakin bu proses Ermənistanın destruktiv siyasi mövqeyi səbəbindən ləngiyir [3, s. 39]. Ermənistan üçün bu dəhliz eyni zamanda iqtisadi inteqrasiya və əməkdaşlıq platformasına qoşulmaq fürsətidir, lakin o, bu fürsəti strateji baxımdan hələ dəyərləndirməyib. Azərbaycan üçün Zəngəzur dəhlizi həm də blokadadan çıxışın rəmzidir. 1990-cı illərdən bəri Naxçıvanın təcrid vəziyyəti yalnız İran və Türkiyə vasitəsilə əlaqələrlə kompensasiya edilirdi. Lakin bu dəhliz birbaşa, təhlükəsiz və daha səmərəli alternativ yol təqdim edir [2, s. 30]. Azərbaycanın dövlətçilik siyasətində bu dəhlizin açılması regional əməkdaşlığın əsas istiqamətlərindən biri kimi müəyyən edilib. Prezident İlham Əliyev bu dəhlizi “əsrin layihəsi” adlandıraraq qeyd edib ki, “Zəngəzur dəhlizi təkcə Naxçıvanla əlaqə yaratmaq deyil, türk dünyasını birləşdirməkdir”. Bu isə layihənin sırf iqtisadi deyil, milli və mənəvi dəyərə malik olduğunu da göstərir.

Hazırda Azərbaycan, dəhlizin öz ərazisindən keçən hissəsində, Horadizdən Zəngilana qədər dəmir yolu və avtomobil yolu infrastrukturunun tikintisini sürətlə davam etdirir. Bu, daxili hazırlığın və siyasi iradənin göstəricisidir [6, s. 19]. Bu kontekstdə Zəngəzur dəhlizi yalnız blokadadan çıxış aləti deyil, həm də Azərbaycanın və Naxçıvanın regional güc mərkəzinə çevrilməsi üçün geosiyasi platformadır.

**Diplomatik tərəfdaşlıqlar və regional sülhdə Naxçıvanın rolu.** Naxçıvan Muxtar Respublikası təkcə Azərbaycanın ayrılmaz hissəsi olmaqla kifayətlənmir, həm də Cənubi Qafqaz regionunda diplomatik və təhlükəsizlik balansında özünəməxsus yerə malikdir. Əsrin əvvəllərindən başlayaraq bölgədə yaranmış mürəkkəb geosiyasi reallıqlar fonunda, Naxçıvan həm Azərbaycanın suverenliyinin simvolu, həm də regional sülh və əməkdaşlığın mümkün platforması kimi ön plana çıxır [1, s. 52]. Naxçıvanın diplomatik əhəmiyyəti ilk növbədə onun yerləşdiyi coğrafi mövqe ilə müəyyən olunur. Türkiyə, İran və Ermənistanla sərhəd zonasındakı bu muxtar dövlət üçtərəfli və çoxtərəfli diplomatik əlaqələrin kəsişmə nöqtəsində yerləşir. Bu isə Naxçıvanı transsərhəd diplomatiyasının mühüm vasitəsinə çevirir [4, s. 67]. Xüsusilə Azərbaycan – Türkiyə – Naxçıvan formatında əməkdaşlıq, bölgənin təhlükəsizlik və sabitlik arxitekturasında vacib yer tutur. 2010-cu ildən bu yana Naxçıvanda keçirilən birgə hərbi təlimlər və humanitar layihələr yalnız ikitərəfli deyil, eyni zamanda Türk dövlətləri arasında qarşılıqlı etimadın gücləndirilməsinə yönəlmiş diplomatik jestlər kimi də dəyər-

ləndirilir [6, s. 40]. Diplomatik müstəvidə Naxçıvan həm də sülh təşəbbüslərinin regional laboratoriyası kimi dəyərləndirilə bilər. 2009-cu ildə Türk Dövlətləri Təşkilatının (əvvəlki adı ilə Türk Şurası) əsasının məhz Naxçıvanda qoyulması, siyasi simvolizm baxımından mühüm hadisə olmaqla yanaşı həm də türk dünyasının qarşılıqlı diplomatik əlaqələrinin möhkəmləndirilməsinə xidmət etmişdir [2, s. 49]. Post-münaqişə dövründə Naxçıvanın Zəngəzur dəhlizi ilə regiondakı diplomatik əlaqələrin genişlənməsi baxımından oynayacağı rol daha da aktuallaşmışdır. Bu dəhlizin açılması Ermənistanın regional təcriddən çıxması və sülh gündəliyinə inteqrasiya olunması üçün diplomatik fürsət təqdim edir [4, s. 26].

Bütün bu faktlar onu göstərir ki, Naxçıvan yalnız iqtisadi və geosiyasi deyil, həm də diplomatik və sülhyaratma mexanizmlərinin fəal iştirakçısı və təşəbbüsçüsüdür. Bu, Azərbaycanın balanslı xarici siyasət kursunun regional elementlərindən biri kimi çıxış edir.

**Nəticə.** Naxçıvanın geostrateji mövqeyi, tarixi-siyasi proseslər fonunda qazandığı status və Azərbaycan dövlətçiliyinin inkişafındakı rolu bu gün təkcə regional deyil, həm də beynəlxalq əhəmiyyət kəsb edən məsələ kimi dəyərləndirilməlidir. 2020-ci ildə əldə olunan tarixi Zəfərdən sonra formalaşan yeni geosiyasi reallıqlar Azərbaycanın regiondakı mövqeyini daha da gücləndirmiş, Naxçıvanın bu yeni düzəndə strateji bir mərkəz kimi çıxış etməsinə geniş imkanlar yaratmışdır. Xüsusilə Zəngəzur dəhlizinin açılması ilə bağlı irəli sürülən təşəbbüslər təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsinin bərpa olunmasına deyil, həm də bütün Türk dünyasını birləşdirəcək böyük bir nəqliyyat və iqtisadi arteriyanın formalaşmasına yol açır. Bu kontekstdə Naxçıvan təkcə coğrafi körpü funksiyasını yerinə yetirmir, həm də siyasi, iqtisadi, mədəni və təhlükəsizlik sahələrində əməkdaşlığın mərkəzinə çevrilir. Türk Dövlətləri Təşkilatının (TDT) fəallaşması fonunda Naxçıvanın ortaq türk irsinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi baxımından da əvəzsiz rolu vardır. Eyni zamanda, burada yerləşən beynəlxalq platformaların, o cümlədən TDT çərçivəsində yaradılan əməkdaşlıq institutlarının Naxçıvanda təşkili, regionun beynəlxalq statusunu daha da artıracaqdır.

Zəngəzur dəhlizinin açılması və regionda kommunikasiyaların bərpası, Naxçıvanın iqtisadi potensialının reallaşdırılması ilə yanaşı, Azərbaycanın enerji və loqistika siyasətinin mərkəzinə çevrilməsinə də şərait yaradır. Bu isə bütövlükdə ölkənin geoiqtisadi və geosiyasi çəkisinin artmasına gətirib çıxarır. Eyni zamanda, bu inkişaf Naxçıvanın sosial-iqtisadi həyatına da müsbət təsir göstərəcək, iş yerlərinin artmasına, yerli sənayenin və turizmin inkişafına səbəb olacaqdır.

Beləliklə, Naxçıvanın Azərbaycan dövlətçiliyindəki xüsusi statusu, yalnız tarixi və hüquqi müstəvidə deyil, eyni zamanda strateji, iqtisadi və mədəni aspektlərdə də özünü göstərir. Bu baxımdan, regionun inkişafına yönəlmiş hər bir təşəbbüs, həm Azərbaycanın daxili möhkəmlənməsinə, həm də regionda sülh və əməkdaşlıq mühitinin qurulmasına xidmət edir. Mövcud şəraitdə Naxçıvan, Azərbaycan-Türkiyə birliyinin möhkəmlənməsində, Türk dünyasının inteqrasiyasında və Avrasiya məkanında yeni güc mərkəzlərinin formalaşmasında əsas dayaqlardan biri kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. Əliyev İ. Cənubi Qafqazda yeni geosiyasi reallıqlar və Azərbaycanın regional rolu. Bakı: Elm və Təhsil, 2020.
2. Qasımzadə R. Zəngəzur dəhlizi və Azərbaycanın nəqliyyat strategiyası. Bakı: Strateji Araşdırmalar Mərkəzi, 2022.
3. Hüseynov M. Türk dünyasının inteqrasiyasında Naxçıvanın rolu. Naxçıvan: Naxçıvan Dövlət Universiteti Nəşriyyatı, 2021.
4. Əliyev, İ. Prezident İlham Əliyevin rəsmi çıxışları və müsahibələri. Bakı: Prezident Administrasiyası Nəşriyyatı, 2021.
5. Məmmədov E. Azərbaycanın Loqistika Potensialı və Regional İnkişaf. Bakı: İqtisadi Araşdırmalar Fondu, 2023.

6. Süleymanlı T. Cənubi Qafqazın təhlükəsizlik arxitekturasında Naxçıvan. Gəncə: Qafqaz Universiteti nəşriyyatı, 2022.
7. Məmmədli F. Türk akademik və mədəni təşkilatlarının regional perspektivləri. Ankara: Türk Dünyası Araşdırmaları Mərkəzi, 2023.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: huseynabbasov109@gmail.com***

**Hussein Abbasov**

## NAKHCHIVAN'S PLACE IN THE NEW WORLD ORDER: GEOPOLITICAL APPROACHES AND STRATEGIC OPPORTUNITIES

In our article, we examine the geopolitical position, regional significance, and role of the Nakhchivan Autonomous Republic in the international relations system within the framework of the new world order that emerged in the third decade of the 21st century. The strategic significance of this special area, its transit potential, its security role, and the opportunities for collaboration with neighboring states will all be thoroughly examined. Against the backdrop of political and economic changes taking place on a global scale, especially the disruption of the balance of power between the poles, the Nakhchivan region has gained new strategic weight. The new realities that have emerged in the South Caucasus after the Second Karabakh War in 2020, together with the possibility of opening the Zangazur corridor, are turning Nakhchivan into an important hub for both intra-regional and inter-regional cooperation. The significance of this corridor extends beyond the restoration of the land connection between Azerbaijan and Nakhchivan. It also plays a role in the integration of the Turkic world and the expansion of East-West transport routes within the Middle Corridor.

Our analyses provide an analysis of the geographical position of Nakhchivan from historical and contemporary political aspects, and the role that this territory can play in cooperation platforms with the Organization of Turkic States and other international organizations is assessed. Analyses conducted in the context of energy, transport, security, and humanitarian relations reveal the potential of Nakhchivan to become one of the significant geopolitical figures of the region in the future. As a result, it is noted that Nakhchivan acts as an essential geopolitical point in the realization of Azerbaijan's common strategic interests in the new world order.

**Keywords:** *Nakhchivan, new world order, geopolitical realities, Zangezur corridor, Turkic world, regional cooperation, strategic position.*

**Гусейн Аббасов**

## МЕСТО НАХЧЫВАНА В НОВОМ МИРОВОМ ПОРЯДКЕ: ГЕОПОЛИТИЧЕСКИЕ ПОДХОДЫ И СТРАТЕГИЧЕСКИЕ ВОЗМОЖНОСТИ

В нашей статье, где мы анализируем геополитическое положение, региональное значение и роль Нахчыванской Автономной Республики в системе международных отношений в контексте нового мирового порядка, который начал формироваться в третьем десятилетии XXI века, мы подробно рассмотрим стратегическое значение этого уникального региона, его транзитные возможности, роль, которую он играет в плане безопасности, а также перспективы сотрудничества с соседними государствами. На фоне глобальных политических и экономических изменений, особенно дисбаланса межполярных сил, Нахчыванский регион приоб-

рел новый стратегический вес. Новые реалии, возникшие на Южном Кавказе после Второй Карабахской войны 2020 года, а также возможность открытия Зангезурского коридора превращают Нахичевань в важный центр как внутрирегионального, так и межрегионального сотрудничества. Этот коридор имеет стратегическое значение не только с точки зрения восстановления сухопутного сообщения между Азербайджаном и Нахчываном, но и с точки зрения интеграции тюркского мира и расширения транспортных путей Восток-Запад в рамках Срединного коридора.

Наш анализ дает представление о географическом положении Нахчывана с исторической и современной политической точек зрения, а также оценивает роль, которую эта территория может играть в платформах сотрудничества с Организацией тюркоязычных государств и другими международными организациями. Анализ, проведенный в контексте энергетики, транспорта, безопасности и гуманитарных отношений, раскрывает потенциал Нахчывана стать одной из важных геополитических фигур региона в будущем. В результате отмечается, что Нахчыван выступает в качестве важного геополитического пункта в реализации общестратегических интересов Азербайджана в новом мировом порядке.

**Ключевые слова:** *Нахчыван, новый мировой порядок, геополитические реалии, Зангезурский коридор, тюркский мир, региональное сотрудничество, стратегическое положение.*

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 03.10.2025**
**Son variant 28.10.2025**